# AĞCABƏDİ: HƏR BİR PROBLEM VAXTINDA HƏLLİNİ TAPIR

Müstəqil respublikamızın sosial-iqtisadi tərəqqi sahəsində əldə etdiyi nailiyyətlərdə Ağcabədi rayonunun da layiqli payı vardır. Onlar həmişə olduğu kimi, bu il də qurub-yaratmaq amalı ilə yaşayıb işləyirlər. Respublika Prezidenti cənab İlham Əliyevin Ağcabədi sakinlərinə qayğısı onların quruculuq əhval-ruhiyyəsini xeyli yüksəltmişdir. İlin birinci yarısında məhsul buraxılışının ümumi həcmi 2014-cü ildəkinə nisbətən 18,5 faiz artaraq 138 milyon manata çatmışdır. Ümumi məhsulun 6421 min manatı sənayenin, 79315 min manatı kənd təsərrüfatının, 15165 min manatı tikintinin, qalan hissəsi ticarət və iaşənin, rabitə, nəqliyyat və digər xidmət sahələrinin payına düşür. Əsas kapitala yönəldilən investisiyanın həcmi 16592 min manat olmuşdur ki, bu ötən ildəkinə nisbətən 3,6 faiz çoxdur. Bütün göstəricilər üzrə istehsalın həcmi ötən ilin eyni dövrünün səviyyəsini üstələmişdir.

Daim dövlət qayğısı sayəsində rayonda tikinti-abadlıq işləri genişlənməkdədir. Son vaxtlar ərzində rayonda tikinti-abadlıq və quruculuq işlərinə çoxlu vəsait sərf olunmuş, tikinti təşkilatlarının yerinə yetirdikləri podrat işlərinin həcmi əvvəlki illərdəkindən daha artıq olmuşdur. Heydər Əliyevin adını daşıyan meydanda yenidənqurma işləri aparılmış, buraya 900 kvadratmetr tamet döşənmiş, iki giriş qapısı qoyulmuş, müasir işıqlandırma və görüntü-monitor sistemləri quraşdırılmışdır. Küçə və meydanlarda 52800 metr ağ və sarı xətlər çəkilmişdir. Şəhərin Üzeyir Hacıbəyli prospektində Şəhidlər Xiyabanı yenidən qurulmuş, yeni Abidə kompleksinin inşasına başlanılmışdır. Şəhərin küçələrində abadlıq işləri həyata keçirilmiş, asfalt döşənmişdir. Şəhərdə və yaşayış məntəqələrində minlərlə dekorativ ağac əkilmiş, 1,2 hektar ərazidə ağac şitilliyi salınmışdır. Ağdam rayonu ərazisindən başlanan istiqamətdə Sarıcalı kəndi ərazisində giriş alaqapısı inşa olunmuş, 1400 metr hasar hörülmüşdür.



Son vaxtlar yol tikintisinə xüsusi önəm verilmiş, magistral və yerli əhəmiyyətli avtomobil yolları sahmana salınmışdır. Hüsülü-Kürdlər-Şərəfxanlı-Mirzəhaqverdili avtomobil yolu istismara verilmişdir.

Rayonda 126 min hektardan artıq kənd təsərrüfatına yararlı torpaqlar vardır ki, bunun da 65704 hektarı əkinə yararlı, 59974 hektarı otlaqlardır. Taxılçılıq, pambıqçılıq və heyvandarlıq aparıcı sahələr hesab edilir. Son vaxtlar fermer təsərrüfatlarına göstərilən maliyyə yardımları istehsalda həlledici rol oynamış, əkinlərin sahəsi xeyli artmışdır. Əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və mühərrik yağlarının əldə etməkdən ötrü 14676 istehsalçıya 2 milyon 725 min manat yardım verilmişdir. Bu mövsümdə taxıl sahələrinin hər hektarından 38 sentner olmaqla cəmi 84627 ton məhsul götürülmüşdür.

Təsərrüfatlarda bəslənilən iri və xırdabuynuzlu heyvanların sayı artmış, heyvandarlıq məhsulları istehsalının həcmi çoxalmışdır. İlin birinci yarısında təsərrüfatlarda 5234 ton ət, 44097 ton süd, 7 milyon 678 min ədəd yumurta, 835 ton yun istehsal olunmuşdur. "Atena" MMC tərəfindən 174 tondan çox pendir və kəsmik, 266 ton süd, 411 ton qatıq, xama və dovğa, 323 ton ayran, 71,2 ton kərə yağı istehsal edilmişdir. Bunun nəticəsində bazarlara çıxarılan kənd təsərrüfatı məhsullarının miqdarı çoxalmış, nəticədə fermerlərin və fiziki şəxslərin gəlirləri artmışdır.

Yaşayış məntəqələrinin sosial-iqtisadi yüksəlişində, insanların yaşayış səviyyəsinin yüksəldilməsində özəl bölmənin oynadığı rol çox önəmlidir. Rayon iqtisadiyyatında məşğul olanların sayı xeyli çoxalmışdır. Bu fakt sahibkarlığın inkişaf etdirilməsinin yüksək templərini və bu inkişafdan ötrü münbit şəraitin mövcudluğunu sübut edir. Bunun nəticəsində bu il 1617 yeni iş yeri açılmışdır ki, bunun da 785-i daimidir.

Vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər Ağcabədidə uğurla həyata keçirilir. 17716 pensiyaçıya xidmət göstərilmiş, 8718 ailənin maddi vəziyyətini yaxşılaşdırmaq üçün sosial yardımlar edilmiş, 2006 aztəminatlı ailəyə hər ailə üzvünə 152 manat olmaqla ünvanlı sosial yardım ödənilmişdir. Əhalinin orta aylıq əmək haqqı 3,5 faiz artaraq 259 manata çatmışdır. 19 nəfər müalicə məqsədilə sanatoriyalara yollayış almışdır.



Rayon icra hakimiyyətinin həyata keçirdiyi tədbirlər nəticəsində xidmət sahələrində işlərin həcmi və keyfiyyəti xeyli yüksəldilmişdir. Nəqliyyatda yük və sərnişin daşınması artmışdır. Pullu xidmətlərin həcmi də əvvəlki illə müqayisədə çoxalmışdır. Mərkəzi ATS-də elektron sistemlər normal fəaliyyət göstərir, xeyli yeni avadanlıq quraşdırılmış, eyni zamanda kənd ATS-ləri elektronlaşdırılmışdır. Əhalinin təbii qazla təmin olunması sahəsində xeyli tədbir görülmüş, hazırda 27229 abonent mavi yanacaqdan istifadə edir, kəndlərə yeni qaz xətləri çəkilir. Rayonda elektrik təsərrüfatının inkişaf etdirilməsi sahəsində mühüm irəliləyiş olmuş, rüb ərzində istehlakçılara 5 milyon 436 min kilovat-saat enerji verilmişdir. Avşar-Kəbirli və Yeni Qaradolaq qaz xətləri çəkilmiş, hazırda Şərəfxanlı, Aran, Rəncbərlər və Kəbirli kəndlərində qazlaşdırma işləri tamamlanmaq üzrədir.




Əhaliyə mərkəzi xəstəxana nəzdində 7 şəhər, qəsəbə və kənd sahə xəstəxanaları, 19 həkim məntəqəsi, 24 kənd tibb məntəqəsi xidmət göstərir. Uşaq xəstəxanası, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri yüksək səhiyyə xidməti göstərir. Prezident İlham Əliyevin tapşırığına əsasən 84620 min sakin pulsuz tibbi müayinədən keçmiş, 996 nəfər ambulator, 63 nəfər stasionar müalicəyə cəlb olunmuşdur.

Rayonda mədəniyyət müəssisələrinin işi xeyli canlandırılmış, gənclərin asudə vaxtının mənalı və maraqlı keçməsi üçün lazımi şərait yaradılmışdır. Tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, maddi-mənəvi irsin mühafizəsindən ötrü bütün imkanlar səfərbər edilmişdir. Son vaxtlar rayon gənclərinin bədən tərbiyəsi və idmanla əhatə olunmasında, onların vətənpərvərlik ruhunda tərbiyəsində yaxşı göstəricilər əldə olunmuş, müxtəlif yarışlarda 91 medal və diplom qazanılmışdır.

Ağcabədidə həyata keçiriləsi və yerinə yetirilməsi nəzərdə tutulmuş tədbirlər isə hələ çoxdur. Sakinlər bunu aydın dərk edir və bütün səylərini Vətənə xidmətə sərf edirlər.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**